# ORTA ƏSR ƏLYAZMALARINDA "MERAC" MİNİATÜRLƏRİ

**Aysel İsrafilova**
**E-mail:** israfilova95@gmail.com

"Merac" ərəb dilində "uruc" sözündən olub yüksəlmə, qalxma mənasındadır. Fərqli lüğətlərdə isə bu termin "göyə yüksələn vasitə", "nərdivan" mənalarını da daşıyır. "Qurani-Kərim"də də rast gəlinən kəlmə Məhəmməd Peyğəmbərin (s) göyün yeddi qatına səyahətini ifadə etmək üçün istifadə olunur. Həmin səyahətin nəticəsi kimi namaz müsəlmanlara merac hədiyyəsi hesab edilir.

Göyə, səmaya, cənnətə yüksəlməyə olan maraq insanların ən qədim miflərində və inanclarında da görünür. Neandertal insanların 65 min illik mağara rəsmlərində də göründüyü kimi səmaya yüksəlmə mifi və ya xəyalı yaşadığı yerindən və dövründən asılı olmayaraq, hər cür insanın həyatında ən önəmli hadisələrdən biri olmuşdur.

Merac haqqında orta əsrlərdə çoxsaylı kitablar qələmə alınmış və yaxud da hər hansısa əlyazmanın bir hissəsində bu mövzuya yer verilmişdir. Müxtəlif dini mənbələrdə merac hadisəsi müxtəlif cür şərh olunduğu üçün bu mövzuda işlənmiş miniatürlərdə də bu müxtəliflik özünü büruzə verir. İslam təsviri sənətində əvvəllər əlyazmaların ilk səhifələrini bəzəyən merac səhnələri daha sonralar şah, sultan və ya yüksək rütbəli şəxslər üçün "Meracnamə" şəklində əlyazma və həmin əlyazmalara istinadən albomlar şəklində hazırlanmağa başlamışdır.

Belə əlyazmalardan biri də orta əsrlərdə İbn Sina tərəfindən yazılmış "Meracnamə"dir. Amma İbn Sina kitabda bir səyahəti deyil, öz fəlsəfi fikirlərini qələmə almışdır. Orta əsrlərin ən məhşur şairlərindən olan Nizami Gəncəvi, Əmir Xosrov Dəhləvi, Cami və başqaları öz şeirlərində mədh, dua, sitayiş kimi alleqorik ifadələrlə merac hadisəsindən bəhs etmişlər. Hazırkı dövrdə muzey və kitabxanalarda qorunan ən gözəl və dəyərli merac təsvirlərinin çox böyük bir qisminin bu cür ədəbi əlyazmalarda olması heç də təsadüfi deyildi. Divanlarına əsasən merac hadisəsindən bəhs edərək başlayan şairlərin əlyazmalarının bəzədilməsi prosesində ilk təsvirin də merac səhnəsi olması əksəriyyət təşkil edir. Nizami Gəncəvinin "Xəmsə"sinin ilk poeması olan "Sirlər xəzinəsi" məsnəvisində də ilk miniatür merac hadisəsinə həsr edilmişdir. Caminin Divanı, "Həft rəng", "Yusif və Züleyxa" poemalarında, Dəhləvinin "Xəmsə"sində və dövrün başqa ədəbi yazarlarının əsərlərində də merac miniatürlərinin mövcudluğu diqqət çəkir.

Tədqiqatçılar Nişapurinin "Qisasül Ənbiya" adlı əsərinin ilk əlyazmalarında meracdan bəhs edilməsinə baxmayaraq, yalnız XVI əsrdən etibarən hazırlanan nüsxələrində ilk miniatürün və yaxud ardıcıl 3 miniatürün merac səhnəsi olduğunu qeyd edirlər. Onların fikrincə, merac səhnələrinin əlyazmalarda belə ardıcıl şəkildə yerləşdirilməsi Elxani və Teymuri ənənələrindən qaynaqlanmışdır.

İslam dininin təsiri ilə merac türk və fars klassik ədəbiyyatında xüsusi yer tutmuş, beləliklə də "Meracnamə" şəklində əlyazma və toplular meydana gəlmişdir. Merac hadisəsi həm də İslam dini təsvirlərinin ən geniş yayılmışıdır. Ədəbi əsərlərə işlənmiş merac miniatürləri bu səhnəni ümümiləşdirilmiş şəkildə əks etdirməsinə baxmayaraq, "Meracnamə"lərdə səyahətin bütün mərhələləri ayrı-ayrı fərqli



miniatürlərdə öz əksini tapmışdır. Belə əlyazma nümunələrindən biri də Teymuri Şahruha aid hesab edilən "Meracnamə"dir. 1436-cı ildə Heratda hazırlanaraq Şahruha təqdim edilən əlyazma hazırda Parisdə Fransa Milli Kitabxanasında saxlanılır. Uyğur dilində qələmə alınmış əlyazmanın ərəb dilindəki miniatürsüz nüsxəsi isə Türkiyədə Süleymaniyyə kitabxanasında qorunur.

Orta əsrlərdə ilk merac təsvirlərinə Rəşidəddinin "Cami ət Təvarix" əlyazmasının nüsxələrində rast gəlinir. 1306-1307-ci illərə aid Edinburq əlyazmasında Peyğəmbərimiz (s) Burak atı ilə təsvir edilmişdir.

"Merac", Fəzlullah Rəşidəddin, "Cami ət Təvarix", Təbriz məktəbi, Edinburq Universiteti kitabxanası, 1307-cü il.

Məhəmməd Peygəmbərin (s) Burak atın üzərində, mələklərlə birlikdə təsvir edildiyi və Təbrizdə naməlum rəssam tərəfindən işlənmiş miniatürdə Burak bundan sonra rastlaşacağımız bütün təsvirlərindən fərqli - kentavr kimi qollarla və qanadlarsız təsvir edilmişdir. Burak atın arxa tərəfində, əlində qılınc və qalxan, başına isə tac olan varlığın ilk baxışda mələk olduğu düşünülsə də, əslində Burakın quyruğundan çıxan digər bir başıdır. Burak və Cəbrayılın təsvirinin yanında hazırda silinmiş olsa da adları yazıldığı düşünülür. Burakın təsvirində əlində tutduğu kitab və qılınc-qalxan İslam dininin simvolları kimi qəbul edilir. Cəbrayıl isə merac təsvirlərindən ən çox rast gəlinən səhnə, əlində içində süd olduğu düşünülən bir kasa ilə təsvir edilmişdir. Burak atın hər iki başındakı Teymuri tacı miniatürün aid olduğu dövrü təsdiqləyən faktlardan sadəcə biri olaraq qeyd edilə bilər. Miniatürdə diqqət çəkən Həzrət Peygəmbərin (s) üzünün açıq təsviri, hər iki mələyin qadın geyimində olması, simvollar və baxışlarla tamaşaçının diqətinin yönləndirilməsi kimi məqamlar özünü büruzə verir. Miniatürdə Burak at hələ Yer üzündə olmasına baxmayaraq, rəssam onun növbəti hərəkətini göstərmək üçün sol ön ayağını üfüq xəttində, sanki səmaya qalxmağa hazırlaşan vəziyyətdə təsvir etmişdir. Hər iki mələyin və Burak adlandırılan möcüzəvi varlığın baxışlarının Allah Rəsuluna (s) çevrilməsi rəssamın diqqəti burada toplamaq istədiyinə işarədir. Göylər dərgahının qapılarını qoruyan mələk onları açmış, bir əlini irəli uzadaraq sanki Peygəmbərə (s) "Buyur!" edir. Çin-uyğur üslubunun təsvir xüsusiyyətlərini daşıyan miniatürdə mələklərin

geyimlərinin çiyini açıq təsviri XVI əsrə aid Şah Təhmasibin "Xəmsə" əlyazmasının "Merac" miniatüründə də görünür.

Bu əlyazmanın İstanbulda qorunan Herat nüsxəsində isə demək olar ki, ilk dəfə merac səhnəsi əsaslı şəkildə öz əksini tapmışdır. Herat əlyazmasına aid miniatürdə Həzrət Məhəmmədin (s) Burak atın tərkində mələklərin müşayiəti ilə səmaya yüksəldiyi səhnə canlandırılmış və sonrakı dövrlərdə merac hadisəsinin təsviri üçün əsas təşkil edən miniatürə çevrilmişdir.

Rəşidəddinin kitabının miniatüründəki merac təsvirini ikonoqafik baza kimi istifadə etmiş digər miniatür isə XIV əsrə aid Fransa Milli kitabxanasında saxlanılan "Kəlilə və Dinmə" əlyazmasındadır. Əlyazmanın merac miniatüründə İlahi Elçi (s) çəmənlikdə qaçan Burak atın tərkində iki mələyin müşayiəti ilə təsvir edilib. Burada öncəkindən fərqli nüanslar da diqqəti cəlb edir. İsrafil və Cəbrayıl olduğu güman edilən hər iki mələyin başındakı tac və geyimləri rəssamın onların həm yüksək rütbəsinə işarəsi, həm də yaşadığı dövrün əsilzadələrinin həyat tərzindən bəzi ünsürləri müəyyən qədər əks etdirdiyini göstərir. Burak at miniatürdə insan başlı, at bədənli, aslan quyruqlu və qanadlı möcüzəvi varlıq kimi verilmişdir. Rəsuli-Əkrəmin (s) təsvirində də bəzi fərqli məqamlar diqqət çəkir. Belə ki, o, mavi rəngli geyimdə, başı ağ sarıqlı, saçları uzun, bir əli ilə yüyəni tutarkən və başında müqəddəsliyin simvolu kimi qəbul edilən alov haləsi ilə təsvir olunub. Bu miniatürdə də üzüaçıq göstərilən Peyğəmbər (s) XVI əsrdən etibarən isə artıq üzü bağlı şəkildədir.

Merac hadisəsinin daha doğlun şəkildə öz əksini tapdığı əlyazma isə XIV əsdə Moğollar dövründə yaradılan "Meracnamə"dir. Ancaq təəssüflər olsun ki bu əlyazma nümunəsi bizə tam şəkildə gəlib çatmamışdır. Mətnsiz ayrı-ayrı vərəqlər şəklindəki miniatürlər isə hazırda Topqapı Saray Muzeyi Kitabxanasında bir albomda qorunmaqdadır.

Meracın tam şəkildə öz əksini tapdığı digər əlyazma isə 1436-cı ildə Heratda Baysunqur Mirzə üçün hazırlanmış və Parisdə Fransa Milli Kitabxanasında saxlanılan nümunədir.

İslam təsviri sənəti əlyazmalarında dini mövzulu təsvirlərin ədəbi və tarixi mövzulu təsvirlərə nisbətən azlığına baxmayaraq, merac təsvirləri çox tez-tez işlənmişdir. Belə ki, ədəbi əsərlərdə mətn ilə əlaqəsi olmasa da əlyazmanın ilk səhifəsində əksərən merac təsvirləri yer alır. Bu cür əlyazmalardan biri də Britaniya kitabxanasında qorunan və XVI əsrdə Şah I Təhmasib üçün hazırlanan Nizaminin "Xəmsə" əlyazmasıdır. Təbriz miniatürünün ən möhtəşəm və əvəzsiz nümunələrindən sayılan və 1539-1543-cü illər tarixli Xəmsənin ilk səhifəsində yer alan «Məhəmməd Peygəmbərin (s) Meracı « adlı miniatür Şərq təsviri sənətində burulğanvari kompozisiyanın mürəkkəb quruluşu, fiqurların dinamikliyi, rəng kontrastlarının yaratdığı gərginlik əsərin bu mövzuya çəkilmiş ən kamil illüstrasiya hesab olunmasına şərait yaratmışdır.

«Məhəmməd Peygəmbərin (s) Meracı», Sultan Məhəmməd, Təbriz məktəbi, Nizami "Xəmsə" əlyazması, Britaniya kitabxanası, 1539-43-cü illər.

Dövrünün ən gözəl sənətkarlarından olan Sultan Məhəmmədin fırçasından çıxmış miniatürdə merac hadisəsi ümumiləşdirmələrə baxmayaraq, çox detallı şəkildə öz əksini tapmışdır. Səhnənin mərkəzində təsvir edilən Peyğəmbər surəti daha öncə qeyd etdiyimiz kimi, bu dövrdən etibarən üzü qapalı şəkildə və ətrafını çevrələyən alov haləsinin böyüklüyü ilə seçilir. Bütün merac miniatürlərində yol göstərən olaraq bilinən baş mələk Cəbrayıl da digər mələklərdən fərqli olaraq başında alov haləsi ilə təsvir edilib. Məkan olaraq buludların üzərini seçən rəssam Peyğəmbəri qarşılayan bütün mələkləri əllərində sinilərlə cənnətdən hədiyyə gətirərkən göstərmişdir. Içində alov olan sinilər İslamdakı işığın və nurun simvolu kimi qəbul edilir.

XVI əsrin ikinci yarısında həm Osmanlı, həm də Səfəvi sənətkarlarının əlyazmalarında da bu mövzuya rast gəlinir. Səfəvi sənətkarları tərəfindən hazırlanan Nişapurinin "Qisasül Ənbiya" və Mirvəndin "Rəvayət əl Səfa" əsərlərində qarşımıza çıxan Merac səhnələri Osmanlıda "Siyəri Nəbi" əlyazmasında özünü büruzə verir. "Siyəri Nəbi"dən başqa Seyid Loğman Aşurinin yazdığı "Cami ət Təvarix" kimi din və siyasi tarixin birlikdə qələmə alındığı "Zübdətüd Təvarix" əlyazmasında da merac təsvirlərinə rast gəlinir.

İslamdan öncəki mədəniyyətlərin də təsirinin duyulduğu bu təsvirlərin ikonoqrafiyasının hələ də tam şəkildə oxunduğunu demək olmaz. Merac təsvirlərinin XIX əsrdə hazırlanmış "Qurani-Kərim"in içində də yer alması, bu dövrdə də sevilən və qəbul edilən bir mövzu olduğunu göstərir. ❖

**Ədəbiyyat:**

1. Azərbaycan miniatürləri. Kərim Kərimov. Bakı, "İşıq", 1980.
2. Möcüzənin ikonoqrafiyası: Merac və Meracnamələr. A.Çağlar Deniz. Alevilik-Bektaşilik Araştırmaları Dergisi , 2019 .
3. Şahrux Meracnaməsi tərcüməsi. A.Çağlar Deniz. 2019.
4. http://www.omurokur.com/2013/06/hz-muhammed-in-mirac-olayi-temsili-resmi/
5. http://lebriz.com/pages/lsd.aspx?lang=TR&sectionID=12&articleID=823&bhcp=1
6. http://www.hayatinanlaminedir.com/resimler/2013/06/jami_al-tawarikh_miraj.jpg

**Резюме**

Айсель Исрафилова

"МИРАДЖ" МИНИАТЮРЫ В СРЕДНЕВЕКОВЫХ РУКОПИСЯХ

Нельзя сказать, что иконография этих изображений, которая также имела влияние доисламских культур, была прочитана полностью. Тот факт, что описания Мираджа включены в Священный Коран 19-го века, показывает, что Мирадж - тема, которая до сих пор любима и принята в этот период.

**Ключевые слова:** Мирадж, Мираджнаме, рукопись, миниатюра, описание, иллюстрация

**Summary**

Aysel Israfilova

"MIRAJ" MINIATURES IN MEDIEVAL MANUSCRIPTS

The iconography of these images, which also felt the influence of pre-Islamic cultures, cannot be said to have been read in full. The fact that the descriptions of the miraj are included in the 19th-century Holy Qur'an shows that the miraj is a topic that is still loved and accepted in this period.

**Key words:** Miraj, Mirajnameh, manuscript, miniature, description, illustration